AZERBAIJAN

# Olimpiya dünyası

www.olimpiyadunyası.com
www.olimpnews.az

Azərbaycan Milli Olimpiya Komitəsinin qəzeti

№ 8 (1510), 1 - 7 mart 2022-ci il

Qəzet 2001-ci ildən çıxır.



## Milli Olimpiya Komitəsinin İcraiyyə Komitəsinin iclası keçirilib

Fevralın 25-də Azərbaycan Milli Olimpiya Komitəsinin (MOK) İcraiyyə Komitəsinin iclası keçirilib. İclasda MOK-un vitse-prezidentləri Çingiz Hüseynzadə, Fərid Qayıbov, Zemfira Meftaxetdinova, baş katib Azər Əliyev, İcraiyyə Komitəsinin üzvləri Mariana Vasileva, Könül Nurullayeva, Nazim Hüseynov, Namiq Abdullayev, Fərid Mansurov və Hacı Ramil iştirak ediblər.

İclasda çıxış edən Milli Olimpiya Komitəsinin vitse-prezidenti Çingiz Hüseynzadə qurumun İcraiyyə Komitəsinin yeni tərkibdə iclasının iştirakçılarını gündəlikdəki məsələlərlə tanış edib.

Qeyd olunub ki, iyulun 24-30-da Slovakiyanın Banska-Bistritsa şəhərində baş tutacaq Avropa Yeniyetmələrinin XVI Yay Olimpiya Festivalında idmanın 11 növü üzrə yarışlar keçiriləcək. Sonuncu dəfə 2019-cu ildə Bakıda keçirilən festivalda Azərbaycan komandası 122 atletlə idmanın 10 növündə təmsil olunub. Yeniyetmə idmançılarımız 10 qızıl, 7 gümüş və 6 bürünc medalla komanda hesabında dördüncü yeri tutublar.

Avqustun 9-18-də Türkiyənin Konya şəhərində keçiriləcək V İslam Həmrəyliyi Oyunlarına hazırlıq məsələlərinin də müzakirə olunduğu iclasda oyunlarla bağlı son qərarın martın 17-nə planlaşdırılan missiya rəhbərlərinin iclasında veriləcəyi bildirilib.

İclasda həmçinin Milli Olimpiya Komitəsinin 30 illik yubiley tədbiri haqda da fikir mübadiləsi aparılıb.

## Azərbaycanda üç idman federasiyasının statusu ləğv edildi

Gənclər və İdman Nazirliyi Azərbaycanda üç federasiyanın statusunu ləğv edib. Bu barədə qərar qurumun Kollegiya iclasında qəbul olunub. Qəbul olunan yeni qərara əsasən, Azərbaycan Peyntbol Federasiyası, Otüstü Hokkey Federasiyası və Azərbaycan Turan Do Federasiyası fəaliyyət göstərmədikləri üçün akreditasiyadan keçirilmələri mümkünsüz hesab edilib.

İclasda ölkə ərazisində yayılan idman növlərinin və fənlərinin tanınması, ictimai birliklərə respublika idman federasiyası statusunun verilməsi haqqında xüsusi komissiyanın arayışı ilə bağlı müzakirə aparılıb.

Kollegiyanın qərarı ilə Azərbaycan Şahmat Federasiyası, Azərbaycan Atıcılıq Federasiyası, Azərbaycan Stolüstü Tennis Federasiyası, Azərbaycan Triatlon Federasiyası və Azərbaycan Voleybol Federasiyası akreditasiyadan keçiblər.

Tədbirdə nazirliyin 2022-ci ilin mart ayı üçün perspektiv iş planı da təsdiqlənib.

Ölkədə bədən tərbiyəsi və idmanın inkişafındakı xidmətlərinə görə, eləcə də müvafiq idman növlərində tələb normalarını yerinə yetirdikləri nəzərə alınaraq bir qrup mütəxəssisə "Azərbaycan Respublikasının Əməkdar məşqçisi" və "Azərbaycan Respublikasının Əməkdar İdman Ustası" fəxri adları verilməsi qərara alınıb.

Sonda nazir Fərid Qayıbov Müstəqil Dövlətlər Birliyi İcraiyyə Komitəsinin qərarına əsasən, qurumun Fəxri Fərmanı ilə təltif edilmiş, nazirliyin sağlam həyat tərzinin təbliği və sosial proqramlar sektorunun müdiri Nərmin Aslanbəyovaya həmin mükafatı təqdim edib.

Qeyd edək ki, Azərbaycan Peyntbol Federasiyasının prezidenti millət vəkili Əli Hüseynli, Otüstü Hokkey Federasiyasının prezidenti sabiq vergilər naziri Fazil Məmmədov, Turan Do Federasiyasının prezidenti isə mərhum Süleyman Məmmədli idi.

## Olimpizm

### Pekin-2022 Qış Paralimpiya Oyunlarının başlamasına 3 gün qalır

Martın 4-də Pekində XIII Qış Paralimpiya Oyunlarına start veriləcək. Pekində və yaxınlıqdakı Canciakou şəhərində keçiriləcək Qış Paralimpiya Oyunlarında 48 ölkəni təmsil edən idmançılar mübarizə aparacaq. Paralimpiyaçılar idmanın altı növündə 78 dəst medal uğrunda yarışacaqlar. 24-cü Qış Olimpiya Oyunlarında istifadə olunmuş arenaların və Olimpiya kəndlərinin Paralimpiya Oyunlarında istifadəsi üçün hazırlıq işləri də artıq yekunlaşmaq üzrədir.

Qış Olimpiya Oyunlarında olduğu kimi, Qış Paralimpiya Oyunlarının da açılış mərasimi Pekində məşhur "Quş yuvası" stadionunda keçiriləcək.

Qeyd edək ki, Azərbaycan komandası Paralimpiya tarixində ilk dəfə Pekində keçiriləcək Qış Paralimpiya Oyunlarında təmsil olunacaq. Oyunlarda milli paralimpiya komandamızı kross-kantri növünün sprint kateqoriyasında Mehman Ramazanzadə təmsil edəcək. İdmançımız paralimpiadada martın 9-da mübarizəyə başlayacaq.

Qeyd edək ki, Pekin-2022 Qış Paralimpiya Oyunları martın 13-dək davam edəcək.

### Beynəlxalq Olimpiya Komitəsindən federasiyalara çağırış

Beynəlxalq Olimpiya Komitəsi (İOC) bütün idman federasiyalarını Rusiya və Belarusda keçiriləcək bütün yarışları təxirə salmağa və ya ləğv etməyə çağırıb. Beynəlxalq qurumun rəsmi saytında yer alan xəbərə görə, buna səbəb kimi Ukraynadakı hadisələr göstərilib. Bildirilib ki, federasiyalar atəşkəs rejiminin pozulmasını nəzərə almalı və idmançıların təhlükəsizliyinə mütləq önəm verməlidirlər. İOC-un özü də bu iki ölkədə hər hansı yarış təşkil etməyi planlaşdırmır.

Həmçinin bütün federasiyalara rəsmi yarışlarda Rusiya və Belarusun dövlət rəmzlərindən istifadə etməmək təklif olunub.

Beynəlxalq Olimpiya Komitəsi Ukraynaya hərbi təcavüz nəticəsində zərər çəkmiş vətəndaşlara dəstəyini ifadə edib.

## Şahin İmranov:
"Bəlkə güləşdə qalsaydım, daha böyük nəticələr əldə edərdim"

Səh. 3

## *Bakıdakı yarışda 21 ölkədən gəlmiş gimnastlar yarışacaq*

Səh. 4

## Anons

## *Azərbaycan ilə Meksika arasında idman sahəsində əməkdaşlığın perspektivləri müzakirə olunub*

Səh. 2

## Foto-obyektivin gözündən yayınmayan, yaddaşlara həkk olan məqamlar

Səh. 5




## *Avropa Liqası: "Qalatasaray" "Barselona" ilə üz-üzə*

Səh. 7

*İdman dünyasındakı maraqlı və operativ xəbərləri gündəlik*
**olimpiyadunyasi.com** *onlayn qəzetindən oxuyun*



## Azərbaycan ilə Meksika arasında idman sahəsində əməkdaşlığın perspektivləri müzakirə olunub



Azərbaycan Milli Olimpiya Komitəsinin (MOK) vitse-prezidenti Çingiz Hüseynzadə Meksikanın ölkəmizdəki səfiri Xuan Rodriqo Labardini ilə görüşüb.

Görüşdə Ç.Hüseynzadə Azərbaycanın Olimpiya tarixi haqda səfirə məlumat verib. Prezident İlham Əliyevin MOK-a rəhbərlik etməsinin Azərbaycanın beynəlxalq Olimpiya hərəkatında mövqeyinin güclənməsinə və ölkəmizdə idmanın inkişafına səbəb olduğunu deyən Ç.Hüseynzadə bu il 30 illik yubileyini qeyd edən MOK-un beynəlxalq Olimpiya hərəkatındakı əhəmiyyətli mövqeyini nümayiş etdirən məqamlara toxunub.

Diplomat Meksika ilə Azərbaycan arasında imzalanan və elm, mədəniyyət, təhsil, idman, gənclər sahələrini əhatə edən hökumətlərarası sazişi xatırladıb və bu sənəd əsasında görülən işlərdən danışıb.

İdmançıların hər iki ölkədə təlim-məşq toplanışlarına qatılmalarını təklif edən səfir Meksika atletlərinin taekvondo, boks və suyatullanma, Azərbaycan idmançılarının isə güləş, gimnastika, atletika və digər idman növləri üzrə təcrübə mübadiləsi aparmalarının da əməkdaşlığa töhfə verəcəyini bildirib.

Söhbət zamanı idman sahəsində uzun illərə əsaslanan əməkdaşlığın inkişafına xidmət edəcək məsələlər müzakirə olunub, əlaqələrin genişləndirilməsinə dair fikir mübadiləsi aparılıb.

## Fərid Qayıbov Türkiyənin ölkəmizdəki səfiri ilə görüşüb

Gənclər və idman naziri Fərid Qayıbov Türkiyənin ölkəmizdəki səfiri Cahit Bağçı və səfirliyin attaşesi Nurettin Erdoğanla görüşüb.

Gənclər və İdman Nazirliyinin mətbuat xidmətindən verilən məlumata görə, görüşdə iki qardaş ölkə arasında gənclər və idman sahələrində əlaqələrin daha da inkişaf etdirilməsi perspektivləri müzakirə edilib.

Nazir qonağa Azərbaycanın idman həyatı, eləcə də dövlətin gənclər siyasəti barədə məlumat verib. Beynəlxalq yarışlara birgə hazırlıq məqsədilə birgə təlim məşqlərin, eləcə də gənclərin təcrübə mübadiləsinin vacibliyi vurğulanıb.



## Gənclər və idman naziri Azərbaycan Minifutbol Federasiyasının fəaliyyəti ilə tanış olub

Gənclər və idman naziri Fərid Qayıbov Böyükşor bulvarında yerləşən "Azfar Group" minifutbol meydançaları kompleksində Azərbaycan Minifutbol Federasiyasının fəaliyyəti ilə maraqlanıb.

Gənclər və İdman Nazirliyinin mətbuat xidmətindən verilən məlumata görə, federasiyanın infrastrukturu ilə tanış olan F.Qayıbov iyunun 4-dən 11-dək keçiriləcək Avropa çempionatında iştirak edəcək milli komandanın heyəti ilə söhbət edib və onlara gələcək yarışlarda uğurlar arzulayıb.

Federasiyanın sədri Azər Hüseynov və sədr müavini Taleh Nəsibov qurumun fəaliyyəti, 2018-ci ildən bu vaxtadək görülən işlər, təşkil olunan yerli yarışlar və beynəlxalq turnirlərdə qazanılan nəticələr barədə məlumat veriblər.

## Cüdoçularımız Varşavadan 5 medalla qayıdırlar



Fevralın 26-27-də Polşanın paytaxtı Varşavada cüdo üzrə açıq Avropa turniri keçirilib. 32 ölkədən 410 (261 kişi, 149 qadın) idmançının mübarizə apardığı turnirdə Azərbaycanı 13 cüdoçu təmsil edib.

Komandamız yarışı 2 qızıl, 1 gümüş və 2 bürünc medalla başa vurub. Qızıl medalları yığmamızın aktivinə Əhməd Yusifov (60 kq) və İbrahim Əliyev (66 kq) yazdırıblar. Gümüş medala isə İsmayıl İbrahimov (66 kq) sahib çıxıb. Rövşən Əliyev (60 kq) və İmran Yusifov (100 kq) isə yarışda üçüncü yeri tutub.

Beləliklə, açıq Avropa turnirində 5 medal qazanan Azərbaycan yığması bu nəticə ilə ümumi sıralamada üçüncü yeri tutub. Cüdo yığmamız kişilərin mübarizəsində isə ümumi komanda hesabında birinci olub.

Qeyd edək ki, daha əvvəl İsrailin Təl-Əviv şəhərində keçirilən "Böyük dəbilqə" turnirində də Azərbaycan yığması kişilərin mübarizəsində birinci yeri tutmuşdu.

## Qarabağda duatlon turniri keçiriləcək

Fevralın 24-də Azərbaycan Triatlon Federasiyasının açıq konfransı keçirilib. Konfransda çıxış edən Azərbaycan Triatlon Federasiyasının prezidenti Elçin Əliyev idmanın bu növü üzrə yaxın illər üçün formalaşdırılmış strategiyası haqqında məlumat verib.

Federasiya prezidenti bildirib ki, yaxın illərdə triatlonun Azərbaycanda ən populyar idman növlərindən biri olmaq potensialı var. İdmanın bu növünə artan maraq belə nikbin proqnoz verməyə imkan verir. Federasiyanın yeni komandası idmanın bu növünü üç istiqamətdə inkişaf etdirmək niyyətindədir. Belə ki, triatlona Azərbaycanda həm peşəkar, həm də həvəskar idman növü kimi xüsusi diqqət yetiriləcək. Bununla yanaşı, xalqımızın, xüsusən də yetişən nəslin sağlamlığının qorunması üçün triatlona kütləvi idman növü kimi də dəstək veriləcək.

"Məqsədimiz Azərbaycanın Zəfər bayrağını beynəlxalq peşəkar və həvəskar idman yarışlarında ucalara qaldırmaq və əzmkar gənclər yetişdirməkdir. Gənclərin bu Olimpiya idman növünə marağı və dövlətimizin davamlı dəstəyi bizə gələcəyə inamla baxmağa imkan verir", - deyə E.Əliyev bildirib.




Federasiya prezidenti, həmçinin 2022-ci ildə nəzərdə tutulmuş idman yarışları haqqında da məlumat verib. O diqqətə çatdırıb ki, sentyabrın 25-də ilk dəfə olaraq triatlon üzrə Azərbaycan açıq çempionatı, oktyabrın 1-2-də isə Zəngilanın Ağalı kəndində 27 sentyabr - Anım Gününə həsr olunmuş Qarabağ duatlon turniri keçiriləcək. E.Əliyev bu məqsədlə kənddə 750 metr uzunluğu və 450 metr enində göl salınacağını açıqlayıb. O, Ağdamda isə duatlon yarışı təşkil etmək istədiklərini bildirib.

Sonra Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi ilə Azərbaycan Triatlon Federasiyası arasında anlaşma memorandumu imzalanıb. Memorandum çərçivəsində Agentliyin əməkdaşları federasiyanın dəstəyi ilə triatlonla məşğul olacaq və onlar üçün müxtəlif formatlı korporativ idman yarışları təşkil ediləcək.

Konfransda, həmçinin 2022-ci ildə nəzərdə tutulmuş yarışlar və müxtəlif tədbirlər haqqında məlumat verilib.

Tədbirdə federasiyanın rəhbərliyi, idmançılar, məşqçilər, eləcə də ölkənin idman ictimaiyyətinin nümayəndələri iştirak ediblər.

Konfransda federasiyanın rəsmi veb-saytının təqdimatı keçirilib, idmançılar mükafatlandırılıblar.

## ADBTİA Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutu ilə saziş imzaladı

Moskvada Rusiya Federasiyası Xarici İşlər Nazirliyinin Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutu (MDBMİ) ilə Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası (ADBTİA) arasında saziş imzalanıb.

Sənədi hər iki ali təhsil ocağının rektorları Anatoli Torkunov və Fuad Hacıyev imzalayıblar.

Saziş Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutu ilə Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası arasında elmi-tədqiqat, təhsil və konsaltinq layihələrinin, elmi-tədris tədbirlərinin, akademik və tələbə mübadiləsinin birgə həyata keçirilməsini, eləcə də digər istiqamətlərdə əməkdaşlığı nəzərdə tutur.

Eyni zamanda, "İdman menecmenti" magistratura proqramının ikili diplom formasında tətbiq edilməsi haqqında bu ali təhsil müəssisələri arasında müqavilə imzalanıb. Müqaviləyə uyğun olaraq, Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutu və Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası Avropanın qabaqcıl universitetlərindəki tərəfdaşlarının da "İdman menecmenti" magistr proqramının həyata keçirilməsinə cəlb edəcəklər. Təhsil proqramını müvəffəqiyyətlə bitirən tələbələrə "İdman menecmenti" ixtisaslaşma dərəcəsi verilməklə hər iki ali təhsil ocağının magistr diplomu təqdim olunacaq.

## Premyer Liqa turnirinin nəticələri müzakirə edilib

Azərbaycan Milli Karate Federasiyasında (AMKF) Birləşmiş Ərəb Əmirliklərinin Fuceyra şəhərində keçirilmiş Karate1 Premyer Liqa turnirinin yekunlarına həsr olunan iclas keçirilib. İclasda çıxış edən federasiyanın prezidenti Yaşar Beşirov yarışda qızıl, gümüş və bürünc medalların qazanılmasını mövsümün uğurlu startı kimi dəyərləndirib. Qeyd edilib ki, nüfuzlu turnirdə 7 idmançı ilə təmsil olunan komandamızın üzvlərindən 5-i medallar uğrunda mübarizə aparıb. Y.Beşirov Dünya Karate Federasiyasının ((WKF) rəsmilərinin beynəlxalq hakimlərimizin işləri barədə xoş sözlər söylədiyini diqqətə çatdırıb.

Milli komandaların baş məşqçiləri Vahid Ayvazov (kata), Qurban Tağıyev (kumite kişilər) və Denis Morozov (kumite qadınlar) idmançıların çıxışları ilə bağlı fikirlərini söyləyiblər. Onlar, həmçinin çərşədakı yarışlar və təlim-məşq toplantıları barədə müzakirələr aparıblar. Turnirin gümüş mükafatçısı Tural Ağalarzadə idmançılar adından federasiya rəhbərliyinə minnətdarlığını bildirib.

## İdmançımız İtaliyada bürünc medala sahib çıxdı

Azərbaycanı dağ xizəyi yarışlarında təmsil edən İlya Kostov İtaliyada 18-21 yaş kateqoriyasından olan gənc idmançılar arasında keçirilən Milli Gənclər Yarışında (National Junior Race) iştirak edib. İdmançımız slalom üzrə yarışda 86,39 xal toplayıb. İ.Kostov bu nəticə ilə ümumi sıralamada 9-cu olsa da, öz yaş kateqoriyasından olan idmançılar arasında 3-cü yerə sahib olub.

Yarışda İtaliya, Fransa, Norveç və digər ölkələrdən 74 idmançı iştirak edib. Qeyd edək ki, İlya Kostov Azərbaycanı dağ xizəyi üzrə yarışlarda 2021-ci ildən təmsil edir.

Bizim müsahibə

# Şahin İmranov:
# “Bəlkə güləşdə qalsaydım, daha böyük nəticələr əldə edərdim”

Bu gün Azərbaycan boksu deyəndə, ağıla ilk olaraq yetərincə güclü idmançılarımız gəlir. Bu idmançılar arasında dünya, Avropa və Olimpiya Oyunlarında mükafatçılar sırasında yer alan boksçularımız da az deyil.

Azərbaycan boksunun ən məşhur simalarından biri də heç şübhəsiz ki, 57 kq çəki dərəcəsində çıxış etmiş Şahin İmranovdur. Pekin-2008 Yay Olimpiya Oyunlarının bürünc, 2002-ci ildə Rusiyada, 2006-cı ildə isə Bolqarıstanda Avropa çempionatının gümüş mükafatçısı olan qəhrəmanımız karyerasını zədələr səbəbindən erkən başa vurdu.

Zədələrlə üzləşən Olimpiya mükafatçımızın uğur yolu heç də asan olmayıb. Hazırda Dövlət Gömrük Komitəsinin polkovnik-leytenantı kimi Gömrük İdman Sağlamlıq Mərkəzində çalışan Şahin İmranov həm də boks üzrə gənclərdən ibarət millimizin məşqçilərindən biridir. Bu günlərdə Tərəqqi me-



dallı, Əməkdar idman ustası Şahin İmranovla həmsöhbət olduq. Müsahibimiz bizi maraqlandıran sualları səmimi cavablandırdı.

***- Şahin müəllim, uzun müddətdir ki, mətbuatdan uzaq gəzirsiniz. Buna səbəb nədir?***

- Yəqin ki, böyük yeniliklərin olmaması ilə bağlıdır. Bildiyiniz kimi 2019-cu ildən gənclərdən ibarət yığma komandaya məşqçi təyin olunmuşam. Bu müddət ərzində dünya və Avropa çempionatlarında iştirak etdik. Pandemiyaya görə çətin vaxtlar olsa da, bu yarışlarda bürünc medallar əldə etməyi bacardıq.

***- İstərdik ki, bir qədər əvvələ qayıdaq. Bildiyimizə görə, boksdan əvvəl sərbəst güləş idman növündə gücünüzü sınamısınız. Güləşdə qalmamağınıza səbəb nə oldu?***

- Buna səbəb ətrafımdakı dostlarımın və həmyaşıdlarımın əksəriyyətinin boksu seçməsi idi. Mən də onlara qoşularaq boks məşqlərini izləməyə getdim. Beləliklə, boksu sevdim və güləşdən ayrılaraq bu idman növünə üz tutdum. Amma etiraf edim ki, güləşdə də pis deyildim. Kim bilir, bəlkə güləşdə qalsaydım daha böyük nəticələr əldə edərdim. Amma bu, Allahın qismətidir. Hər kəsin bir qisməti var. Görünür, mənim də qismətimə boksla məşğul olmaq yazılıb.

***- Sizi bir qədər şanssız idmançı adlandırmaq olar. Yəqin ki, özünüz də bununla razılaşarsınız. Bu sizdə ruh düşkünlüyü yaratmırdı ki?***

- Yəqin ki, qaşımla bağlı problemlərimi nəzərdə tutursunuz. Mənim qaşla bağlı çox ciddi problemlərim olub. Təəssüf ki, həmin zədələri həmişə böyük yarışlarda və əsasən də qalib gəldiyim döyüşlərdə almışam. İlk dəfə zədəm 2002-ci ildə Rusiyanın Perm şəhərində keçirilən Avropa çempionatında oldu. Finaldakı rəqibim təcrübəli rusiyalı boksçu idi. Döyüşdə 6:5 hesabı ilə üstün olsam da qaşımdan aldığım zədəyə görə döyüşü uduzdum, ikinci yerlə kifayətləndim. Afina-2004 Yay Olimpiya Oyunlarında da həmçinin eyni zədə səbəbindən mükafatsız qaldım. Bu Oyunlarda rusiyalı boksçu Aleksey Tişenkoya 10 xal fərqlə qalib gəlirdim. Əgər qaşımdan zədə almasaydım, döyüşü qələbə ilə başa vura bilərdim. Məğlub olduğum rusiyalı boksçu həmin olimpiadanın qalibi oldu. Olimpiya Oyunlarında uduzandan sonra təəssüfləndim. Qalib gəldiyin döyüşü zədəyə görə uduzmaq bu, insana çox pis təsir edir. Amma bununla belə təslim olmaq istəmirdim, çalışırdım ki, ruhdan düşməyim. Məşqçim Məmməd Eyvazovun mənə güvənməsi isə inamımı daha da artırırdı. Qərar verdim ki, həvəsdən düşməyəcəyəm, nəyin bahasına olursa olsun, daha yaxşı hazırlaşıb, Olimpiya Oyunlarında yenidən iştirak edərək medal qazanacağam. Bu potensialı özümdə görürdüm.

***- Nəticədə bu şanssızlığın fonunda Olimpiya mükafatını qazanmağa nail oldunuz.***

- Pekin-2008 Yay Olimpiya Oyunlarına qədər bəzi komanda yoldaşlarım boksdan uzaqlaşdılar. Əvvəlki komandadan tək mən qalmışdım. Pekinə iki boksçu ilə yollandıq. Afina ilə müqayisədə bu dəfə daha təcrübəli idim. Boks üzrə Azərbaycan yığma komandasının kapitanlığını daşıyırdım. Döyüşlərə gələndə elə də asan rəqiblərlə düşməmişdim. İlk mərhələdə qazaxıstanlı dünya çempionu Qalib Cəfərovla üzüzə gəldim. Bu döyüşə qədər ümumilikdə 3:2 onu üstələyirdim. Qalib Cəfərovu məğlub etdikdən sonra növbəti mərhələdə gürcüstanlı Nikoloz İzoriya qalib gəldim. 1/4 finalda isə kubalı İdel Toryenteni üstələdim. Amma Əlcəzair əsilli fransalı boksçu ilə döyüşdə zədələndiyim üçün qələbə rəqibə verildi. Beləliklə, Pekin-2008-i bürünc medalla başa vurdum. Bu həm də karyeramın son uğuru oldu.

***- Qeyd etdiniz ki, qaşınızdan aldığınız zədələrə görə bəzi həlledici döyüşləri yarımçıq dayandırmısınız. Qaşınızın tez-tez partlamasına səbəb nə idi?***

- Mənim alnım çıxıntılı idi. Çəki saldığım üçün isə sifətim arıqlayırdı. O vaxtlar döyüşə dəbilqə ilə çıxırdıq. Dəbilqəni taxanda da qaşımı sıxırdı. Bu da qaşımın tez-tez partlamasına səbəb olurdu. O vaxt Pekin Olimpiya Oyunlarından qayıdandan sonra Almaniyadan peşəkar boksla bağlı təklif gəlmişdi. Federasiya rəhbərliyi bu barədə məni məlumatlandırdı. Amma həmin vaxt çiynimdə və qolumda zədələrim olduğu üçün bu məsələni təxirə saldıq. Çünki peşəkar boksda açıq zərbələr çox olur və bu da qaşımın tez-tez partlamasına səbəb olacaqdı. Beləcə idmandan uzaqlaşdım. Çünki qaşımla bağlı çox əziyyət çəkirdim. Dəfələrlə böyük hesabla irəlidə olduğum görüşləri bu zədəyə görə texniki məğlubiyyətlə başa vurdum.



***- Bildiyimizə görə, Pekin Olimpiadası üçün 11 kq çəki salmışdınız. Maraqlıdır, niyə görə çəkinizi dəyişmirdiniz? Yəqin ki, daha yüksək çəkidə də döyüşə bilərdiniz.***

- Əslində, Afina Olimpiya Oyunlarından sonra fikrim var idi ki, çəkimi dəyişim. Amma böyük boksda çəki dəyişmək elə də asan deyildi. Mən iki çəkidə döyüşürdüm. Beynəlxalq turnirlərdə hər zaman 60 kq-da, dünya, Avropa çempionatlarında isə 57 kq-da çıxış edirdim. O vaxt bizim mehriban komandamız var idi. 60 kq çəkidə yaxşı boksçular da vardı, xüsusən də Ramal Amanovu qeyd edərdim. Çəki dəyişməməyin səbəbi həm də bu mehribanlığa görə idi. Hamı Olimpiya Oyunları haqda düşünürdü. İstəmirdik ki, kimsə kiminsə çəkisinə girsin. Dediyiniz 11 kq çəkiyə gəlincə isə mənim həmin vaxt zədəm var idi. Ona görə yüngül məşqlər edirdim və yaxşı çəki sala bilmirdim. Bir də gördüm ki, çəkim çox artıb. Əvvəl 4-5 kq çəki salırdımsa, bu dəfə 11 kq çəki saldım. Yuxarı çəkidə döyüşməməyimin bir səbəbi komanda yoldaşlarımın çəkisinə girməmək idisə, digər səbəbi də boyumun o qədər də hündür olmaması ilə bağlı idi.

## “Çalışırdım ki, heç olmazsa hissiyyatım ölməsin”

***- Pekin Olimpiadasından əvvəl qolunuzda zədələriniz də var idi. Hətta həmin yarışa qədər çox çətinliklə bərpa olundunuz.***

- İtaliyadakı yarışda möhkəm zədə almışdım. Vətərimin 75 faizi qopmuşdu. Demək olar ki, Pekin Olimpiya Oyunlarına yollanana qədər zərbədən istifadə etmədim. Ancaq müalicə olunurdum. Gənclər və İdman Nazirliyi mənim üçün 3 həkim ayırmışdı. Olimpiadaya çox çətinliklə hazırlaşırdım. Hətta hərdən düşünürdüm ki, mən Pekinə nəyə görə gedirəm? Çünki mən hansısa boksçuya “hədiyə” idim. Çalışırdım ki, uşaqlarla yüngül məşqlər edim ki, heç olmasa hissiyyatım ölməsin. Amma Allaha şükürlər olsun ki, sonuncu olimpiadamda bütün çətinliklərə baxmayaraq Vətənə medalla qayıtdım. Deyərdim ki, Pekin Olimpiadasında ən çox təcrübəmə görə medal qazandım.

***- Azərbaycan boksçuları son 6 olimpiadada 9 medal qazanıblar. Amma təəssüf ki, 9 medalın heç birinin əyarı qızıl olmayıb. Sizcə buna səbəb nədir?***

- Hərdən Vüqar Ələkbərov mənə zarafatla deyir ki, Şahin, təməli elə qoymusan ki, bu tilsimi heç kəs sındıra bilmir. Bu Olimpiya Oyunlarıdır, sürprizlərlə doludur. Mən bunu dövrlərlə əlaqələndirirdim. Elə dövr olub ki, şanssızlıqla üzləşmişik. Elə dövr də olub ki, hakim haqsızlığı və təcrübə çatmayıb.

***- Tokio-2020-dən sonra Azərbaycan boksçularının çıxışını necə dəyərləndirirsiniz?***

- Tokio Olimpiadası çox pis dövrə təsadüf etdi. Komandamız pandemiyaya görə bir sıra yarışlarda və təlim-məşq toplanışlarında iştirak edə bilmədi. Döyüşlərdən danışsaq, Tayfur Əliyevin və Cavid Çələbiyevin qarşılaşmalarında haqsızlıq oldu. Cavidin döyüşündə qələbəni boksçumuza versəydilər, idmançımız yüz faiz medal döyüşünə qədər gedəcəkdi. Qələbəni onun əlindən aldılar. Düzünü desəm, ən çox Məhəmmədə, Cavidə və Alfonso Domingesə ümid bəsləyirdim. Onlardan yalnız Alfonso Dominges medal qazandı. Amma ümumilikdə götürəndə pandemiyanı və yaranan çətinliyi nəzərə alsaq, pis nəticə deyildi.

***- Amma pandemiya tək Azərbaycanda deyildi, bütün dünyada var idi.***

- Bəli elədir. Amma dünyanın bütün ölkələri bu yarışlara yüksək səviyyədə hazırlaşırdı. Özbəklər, ruslar, qazaxlar və digər ölkələrin təmsilçiləri bu mötəbər yarışa ciddi hazırlaşırdılar. Onların hər biri ilə əlaqəm var idi. Pandemiyaya baxmayaraq, il ərzində məşqlərindən geri qalmırdılar.

## “Elə bir boksçunu olimpiadaya aparmaq düzgün addım deyildi”

***- Şahin müəllim, legionerlərin komandaya cəlb olunması prosesinə necə baxırsınız?***

- Tokio Olimpiadasında Lorenzo Sotomayoru çıxmaq şərti ilə komanda pis deyildi. Düzdür, Lorenzo Rio Olimpiadasında gümüş medal qazanmışdı, amma son illərə nəzər salanda o, 5 yarışda ard-arda nokautla məğlub olmuşdu. Fikrimcə, elə bir boksçunu olimpiadaya aparmaq düzgün addım deyildi. Onun əvəzinə yaxşı boksçularımız var idi ki, Sotomayor qədər təlim-məşq toplanışlarına aparılsa idi, nəticə verə bilərdi. Məsələn 69 kq çəki dərəcəsində olan Elnur adında gənc boksçumuz var idi ki, Sotomayoru nokautla məğlub etmişdi. Lakin Elnur bir yarışda məğlub olan kimi, ona dedilər ki, zəifdir. Amma onu davamlı olaraq təlim-məşqlərə və yarışlara aparmalı idilər. Bir yarışla onu kənar qoymaq olmazdı. Legionerlərlə yanaşı, gənclərə də üstünlük vermək lazımdır. Bundan başqa bir-iki boksçumuz var idi ki, onların yerinə heyfslənirəm. Çünki karyeralarını erkən başa vurdular. Elvin Məmişzadə və Teymur Məmmədovu nəzərdə tuturam. Bilmirəm, nəyə görə acıq etdilər, amma bu qərarı verməklə özlərinə də pislik etdilər. Hər iki boksçunun komandada olmaması həm özlərini, həm də komandanı pis vəziyyətə saldı. Onların Tokio Olimpiadasında medal qazanmaq üçün əsl vaxtları idi. Amma bilmədim kimə acıq etdilər, nə idisə özlərinə də pislik etdilər. Səhv etmirəmsə o vaxtı məşqçilərlə yola getmədilər. Əgər Tokiodakı heyətdə Elvin və Teymur da olsa idi, tam hazır komandamız olardı.

***- Bu gün Azərbaycan boksunu necə görürsünüz? Sizcə çətinliklər və problemlər nədədir?***

- Bir vaxtlar özbək boksu çətin günlərini yaşayırdı. Asiyalılar yarışlarda nəticə qazana bilmirdilər. Amma bir baxın, bu gün özbəklər dünyada ən güclü komandalardan biri hesab olunur. Olimpiya Oyunlarında, xüsusilə də Rio-2016-da yüksək nəticələr qazandılar. Biz onların məşqçiləri ilə söhbət edəndə onlar dedilər ki, biz nəsil dəyişikliyini, yaranan boşluğu doldurmağın yeganə yolunu regionlara kəndlərə üz tutmaqda gördük. Özbəklər illərlə elə də yüksək nəticə ilə yadda qalmadılar. Ancaq regionlarda seleksiya işləri ilə məşğul oldular. Nəticədə 3-5 ilə gözəl komanda ortaya çıxardılar. Bu gün də həmin komandanın sistemli şəkildə davamını gətirirlər. Bir işdə əgər sistem yoxdursa, həmin iş heç vaxt ardıcıl gedə bilməz. Azərbaycanda da bu, belə olmalıdır. Əvvəllər, Sumqayıt, Gəncə, Siyəzən, Astaradan yaxşı boksçular çıxırdı. Əsas üstünlüyü həmin yerlərə vermək lazımdır. Regionlarda istedadlı boksçuları tapıb paytaxta gətirmək lazımdır. Bunun üçün bölgələrə güclü mütəxəssislər cəlb olunmalı, məşqçilərə normal maaş verilməlidir, ki, məşqçilərin gözü heç yerdə qalmasın. Məşqçiyə maaş verilmiyəndə, dolanışıq olmayanda o başqa işlərlə məşğul olmağa başlayır. İki nəfər uşaq tapıb, yarışa iştirak və medal xatirinə aparmaqla nəticə əldə etmək mümkün olmayacaq. Normal maaş verildikdə, maraq yaradıldıqda məşqçi də həvəslə işləyəcək və nəticəli boksçular ortaya çıxaracaq.

Hazırda Azərbaycan Boks Federasiyasında yeni rəhbər dəyişikliyi olub. Federasiyanın yeni hədəfləri müəyyənləşib. İnanıram ki, yeni rəhbərlik bu çətinlikləri aradan qaldırmağa müvəffəq olacaq.

***- Maraqlıdır, karyeranız ərzində ən çox nəyə təəssüf hissi keçirirsiniz?***

- Allaha şükürlər olsun ki, Olimpiya Oyunlarında medal qazandım. Təəssüf hissi keçirdiyim bir məqam odur ki, Olimpiya çempionu tituluna yiyələnə bilmədim. Amma qeyd etdiyim kimi buna da şükürlər olsun.

*Azər Əlizadə*

## Bakıdakı yarışda 21 ölkədən gəlmiş gimnastlar yarışacaq

Martın 3-də Milli Gimnastika Arenasında akrobatika gimnastikası üzrə 12-ci dünya yaş qrupları yarışlarına start veriləcək. Azərbaycan Gimnastika Federasiyasının ilk dəfə olaraq təşkil edəcəyi yarışda 21 ölkədən 466 gimnastın iştirak edəcəyi gözlənilir. Yarışda idmançılar 12-18 və 13-19 yaş qrupları üzrə kişi cütlükləri, qadın cütlükləri, qarışıq cütlüklər, kişi qrupları, qadın qrupları balans, temp və qarışıq hərəkətlər proqramında qüvvələrini sınayacaqlar.

Martın 6-dək davam edəcək turnirdə Azərbaycanı 12-18 yaş kateqoriyasında Rəsul Seyidli, Rəvan Zeynallıdan ibarət kişi cütlüyü, Nəzrin Qasımova, Xanım Məmmədzadədən ibarət qadın cütlüyü, Milana Əliyeva, Nizam Xamidulindən ibarət qarışıq cütlük, Anahita Başiri, Zəhra Rəşidova, Nəzrin Zeyniyevadan ibarət qadın qrupu və 13-19 yaş kateqoriyasında Leyla Bəşirova, Nəzrin Fərmanova, Mənsumə Məmmədzadədən ibarət qadın qrupu təmsil edəcək.

* * *

Beynəlxalq Gimnastika Federasiyası (FIG) tərəfindən 2022-2024-cü illəri əhatə edən növbəti Olimpiya dövrünün müvafiq qaydalarına əsasən, kişi idman gimnastikası üzrə hakimlik imtahanları keçirilib. COVID-19 pandemiyası ilə əlaqədar onlayn qaydada keçirilən imtahanlarda kişi idman gimnastikası üzrə 6 Azərbaycan təmsilçisi də iştirak edib.

Təmsilçilərimizin hər biri imtahanı müvəffəqiyyətlə başa vuraraq beynəlxalq hakimlik kateqoriyasına yiyələniblər.

Qeyd edək ki, FIG qaydalarına əsasən, hər Olimpiya Oyunlarından sonrakı yeni Olimpiya dövründə gimnastika idman növləri üzrə qaydalara dəyişikliklər edildiyi üçün hakimlər sahib olduqları hakimlik kateqoriyasını hər dördildənbir təsdiqləməli və ya daha yüksək dərəcə almalıdırlar.

Xatırladaq ki, indiyədək beynəlxalq hakimlik kateqoriyasına yiyələnmək üçün hakimlər əvvəlcə FIG-nin təşkil etdiyi hakimlik kurslarında iştirak edir, daha sonra imtahan verirdilər.

Beynəlxalq federasiya tərəfindən bu il COVID-19 pandemiyası ilə əlaqədar olaraq imtahanların kurslar olmadan onlayn qaydada keçirilməsinə qərar verilib.

## Akrobatika gimnastikası üzrə Azərbaycan birinciliyi və Bakı çempionatı başa çatıb



Milli Gimnastika Arenasında keçirilən akrobatika gimnastikası üzrə 27-ci Azərbaycan birinciliyi və Bakı çempionatına yekun vurulub.

Ölkənin ən güclü akrobatlarının iştirak etdiyi yarışda ümumilikdə 41 idmançı balans, temp və qarışıq hərəkətlər proqramında bacarığını nümayiş etdirib.

Yarışda "Ocaq Sport" Klubu, Bakı Gimnastika Məktəbi, "Neftçi" İdman Klubu, Sumqayıt Olimpiya İdman Kompleksi və Nizami rayonu 13 nömrəli İxtisaslaşdırılmış Olimpiya Ehtiyatları Uşaq-Gənclər İdman Məktəbinin təmsil edən gimnastlar qadın cütlükləri (balacalar - 2007-2016; yeniyetmələr - 2004-2010; böyüklər - 2007-ci il və daha böyük), kişi cütlükləri (yeniyetmələr - 2004-2010; böyüklər - 2007-ci il və daha böyük), qarışıq cütlüklər (yeniyetmələr - 2004-2010; böyüklər - 2007-ci il və daha böyük) və qadın qrupları (balacalar-2007-2016; yeniyetmələr-2004-2010; gənclər-2003-2009) birincilik uğrunda mübarizə apardılar.

Maraqlı və gərgin mübarizə şəraitində keçən yarışlarda idmançılar yeni qaydalara əsasən balans, temp və qarışıq hərəkətlər üzrə proqramlarını nümayiş etdiriblər.

Qeyd edək ki, yerli çempionat və birinciliyin təşkili həm də ölkəmizdə keçiriləcək qarşıdakı beynəlxalq yarışlara - akrobatika gimnastikası üzrə 12-ci Dünya Yaş Qrupları Yarışları və dünya çempionatı öncəsi idmançılarımız üçün sınaq xarakteri daşıyıb. Belə ki, mötəbər yarışlarda Azərbaycanı təmsil edəcək akrobatlarımız milli çempionat və birincilikdə öz yeni proqramlarını yoxlamaq imkanı əldə ediblər.

Qeyd edək ki, yarışlar Azərbaycan Respublikası Nazirlər Kabinetinin xüsusi icazəsi ilə ölkəmizdə tətbiq edilən mövcud karantin qaydalarına və sanitar-epidemioloji tələblərə uyğun olaraq və tamaşaçı iştirakı olmadan keçirilib.

## Super Liqada doqquzuncu tur geridə qaldı

Qadın voleybolçular arasında Azərbaycan Super Liqasında doqquzuncu turun oyunları keçirilib.



Turun ilk görüşündə "Murov" "Abşeron"la üz-üzə gəlib. Qarşılaşma "Abşeron"un üstünlüyü ilə başlayıb. Eldar Yusubovun komandası ilk hissəni 25:17 hesabı ilə aktivinə yazıb. Növbəti 2 hissədə də rəqibindən üstün oyun nümayiş etdirən "Abşeron" 3 xalı 3 setlə qazanıb - 3:0 (25:17, 28:26, 25:20).

Günün ikinci matçında UNEC "Azərreyl"lə görüşüb. Bu matçın qalibi isə dörd setdə bəlli olub. Birinci hissədə 25:18 hesabı ilə qalib gələn Famil Ağayevin komandası növbəti setdə eyni hesabla uduzub. Lakin "Azərreyl" oyununda dönüş yaradaraq növbəti 2 hissədə rəqibini 25:22 və 25:13 hesabı ilə məğlub edib - 3:1.

Bu turdan sonra "Abşeron" 24 xalla turnir cədvəlində liderliyini davam etdirir. Ondan 10 xal geri qalan "Azərreyl" ikinci pillədə qərarlaşıb. Altı xala malik "Murov" üçüncü, 4 xal toplayan UNEC dördüncü yerdədir.

## *Respublika turnirinin qalibləri müəyyənləşib*

Azərbaycan Basketbol Federasiyasının təşkilatçılığı ilə 12 yaşadək



oğlanlar və qızlar arasında "Federasiya Kuboku-2022" respublika turniri keçirilib. Oğlanların yarışında UGİM-8 komandası qalib adını qazanıb. Qızların mübarizəsində isə "Qaradağ" komandası birinci yeri tutub.

Qalib komandalar mükafatlandırılıblar.

## *Güləşçilərimiz ilin ilk reytinq yarışını 8 medalla başa vurdular*

İstanbulda Yaşar Doğu, Hamit Kaplan və Vehbi Əmrənin xatirəsinə həsr olunmuş güləş üzrə reytinq turniri keçirilib. Yarışda iştirak edən Azərbaycan idmançıları güləşin hər üç növündə qüvvələrini sınayıblar. Turnirə klassiklərin yarışı ilə start verilib. Pəhləvanlarımız yunan-Roma güləşi üzrə yarışlarda 1 qızıl, 2 gümüş və 3 bürünc medala sahib çıxıb. Komandamıza yunan-Roma güləşi üzrə yarışlarda qızıl medalı İslam Abbasov qazandırıb. 87 kq çəki dərəcəsində yarışan güləşçimiz əvvəlcə, Özbəkistan və Qazaxıstan güləşçilərinə tam üstünlüklə qalib gəlib. İdmançımız yarımfinalda Türkiyə güləşçisinə də qalib gələrək həlledici görüşə vəsiqə qazanıb. Finalda son dünya və Avropa çempionu, Tokio Olimpiadasının bürünc medalçısı Zurab Datunaşvili (Gürcüstan) ilə qarşılaşan İslam Abbasov əzmkarlıq nümayiş etdirib. Güləşçimiz son saniyələrdə qazandığı xallarla turnirin qalibi olub.

Gümüş medallara isə Sənan Süleymanov (77 kq) və Beka Kandelaki (130 kq) sahib çıxıb. Sənan Süleymanov ilk mərhələdə hindistanlı rəqibinə heç bir şans verməyib. Avropa çempionumuz 1/4 finalda Qazaxıstan təmsilçisini mübarizədən kənarlaşdırıb. Yarımfinalda Türkiyə pəhləvanıyla gərgin mübarizə şəraitində keçən qarşılaşmadan da qalib ayrılan S.Süleymanov finala vəsiqə qazanıb. Sənan həlledici görüşdə türkiyəli həmkarına minimal fərqlə uduzaraq gümüş medala sahib çıxıb.

Yarışa Yunanıstan təmsilçisi üzərində inamlı qələbə ilə başlayan Beka Kandelaki daha sonra Polşa idmançısını minimal fərqlə üstələyib. Pəhləvanımız yarımfinalda Türkiyə güləş tarixinin ən titullu idmançısı, Olimpiya Oyunlarının üçqat mükafatçısı, dördqat dünya və doqquzqat



Avropa çempionu Rza Kayaalpla qarşılaşıb. B.Kandelaki maraqlı mübarizə şəraitində keçən görüşdə titullu rəqibinə qalib gələrək finala yüksəlib. Həlledici görüşdə Türkiyənin digər təmsilçisi Osman Yıldırıma məğlub olan güləşçimiz gümüş medalla kifayətlənib.

Komandamıza bürünc medalları isə Taleh Məmmədov (63 kq), Rafiq Hüseynov (82 kq) və Tuncay Vəzirzadə (82 kq) qazandırıb.

Yarışın üçüncü günündə - fevralın 26-da qadınlardan ibarət millimizin 4 üzvü mübarizəyə başlayıb. Təmsilçilərimizdən yalnız 59 kq çəki dərəcəsində mübarizə aparan Alyona Kolesnik mükafatçılar sırasında yer alıb. İlk görüşdə moldovalı son Avropa çempionu Anastasiya Nikitaya məğlub olan güləşçimiz rəqibin finala yüksəlməsi ilə bürünc medal qazanmaq şansı əldə edib. Təmsilçimiz həlledici görüşdə rumıniyalı Katerina Jidaçevskaya ilə qarşılaşıb və 8:2 hesabı ilə qələbə qazanaraq üçüncü yerə sahib çıxıb.

Yarışın son günündə sərbəst güləş üzrə yığmamızın üzvləri mübarizə apardı. Təmsilçilərimizdən Hacımurad Məhəmmədsoidov (86 kq) çıxışını medalla başa vurub. İlk görüşdə türkiyəli Fatih Erdinə uduzan idmançımız rəqibin finala yüksəlməsinə görə mübarizəni təsəlliverici görüşdə davam etdirmək imkanı qazanıb. İranlı Mojtaba Əsgəriyə tam üstünlüklə qalib gələn güləşçimiz bürünc medal uğrunda qarşılaşmada almaniyalı Lars Şaefleni 7:0 hesabı ilə üstələyərək fəxri kürsünün 3-cü pilləsinə yüksəlib.

Beləliklə, güləşçilərimiz ilin ilk reytinq yarışını 1 qızıl, 2 gümüş və 5 bürünc medalla başa vurublar.

Qeyd edək ki, reytinq turnirində beynəlxalq dərəcəli hakimlərimizdən Sədi Quliyev və Natiq Hacıyev ədalətli qoruyub.

## Beynəlxalq və Azərbaycan Cüdo federasiyaları arasında əməkdaşlığın inkişafına dair müzakirələr aparılıb

Azərbaycan Cüdo Federasiyasının (ACF) vitse-prezidenti Elnur Məmmədli və baş katibi Rəşad Rəsullu Beynəlxalq Cüdo Federasiyasının (İJF) Budapeşt şəhərində yerləşən mənzil-qərargahında təşkilatın baş direktoru Vlad Marinesku ilə görüşüblər.

Tədbirdə Vlad Marinesku Azərbaycan kimi dünyanın aparıcı cüdo ölkəsinin təmsilçilərini salamlamaqdan böyük məmnunluq duyduğunu vurğulayıb. Qeyd edib ki, Azərbaycan və beynəlxalq cüdo qurumları arasında çoxillik əməkdaşlıq mövcuddur. Belə ki, 2009-cu ildən etibarən Azərbaycanda dəmək olar hər il beynəlxalq səviyyəli nüfuzlu turnirlərdən biri təşkil edilir. Qurum, həmçinin Azərbaycanda cüdonun inkişafı ilə bağlı müəyyən layihələrə də dəstək verib. O, görüşün dünya cüdo ailəsinin dəyərli təmsilçisi olan Azərbaycanda bu idman növünün daha da inkişaf etdirilməsi ilə bağlı birgə layihələrin müəyyən edilməsi baxımından mühüm əhəmiyyətini vurğulayıb.

Elnur Məmmədli dünya cüdosunun mərkəzində olmaqdan və görüş üçün imkanın yaradılmasından məmnuniyyətini ifadə edib, təşkilatlar arasında qarşılıqlı əməkdaşlığın daha da genişlənəcəyinə əminliyini bildirib.

Sonra hər iki qurum arasında əməkdaşlıq imkanları, Azərbaycanda cüdonun inkişafı istiqamətində birgə layihələr və İJF-in malik olduğu zəngin təcrübənin Azərbaycanda tətbiqi məsələləri müzakirə edilib. Azərbaycanda cüdonun kütləviliyinin artırılması ilə bağlı həyata keçirilən və planlaşdırılan tədbirlər barədə məlumat verilib və fikir mübadiləsi aparılıb.

Tədbirdə məşqçi heyətinin peşəkarlığının yüksəldilməsi istiqamətində əməkdaşlıq şəraitində artıq real addımların atıldığı vurğulanıb. Belə ki, İJF-in nəzdində olan akademiyada cari ilin martından etibarən 50-yə yaxın yerli məşqçi təhsil almağa başlayacaq. Sonrakı mərhələdə akademiya ilə əməkdaşlıq istiqamətində növbəti addımlar, xüsusilə də hakimlər heyətinin təhsili üzrə layihə müzakirə edilib.

Cüdonun uşaqlar və gənclər arasında təbliğatı məqsədilə İJF-in "Məktəblərdə cüdo" layihəsinin Azərbaycanda həyata keçirilməsinin vacibliyi vurğulanıb. Cüdonun gənc nəslin fiziki sağlamlığı ilə yanaşı, təhsil və təlim-tərbiyəsində də mühüm rol oynadığı qeyd edilib.

Görüşdə 2022-ci il noyabrın 4-6-da Bakıda "Böyük dəbilqə" yarışının yüksək səviyyədə keçiriləcəyinə əminlik ifadə olunub.

MARAQLIDIR

# Foto-obyektivin gözündən yayınmayan, yaddaşlara həkk olan məqamlar

*İdman aləmində baş verənlər daim geniş müzakirə obyektinə çevrilir. Keçmişdə idman aləmində yaşanan hadisələr əsasən, bizə video və fotoların sayəsində gəlib, çatır. İdman fotoqraflarının çəkdikləri şəkillərin əksəriyyəti bu gün ən dəyərli xəzinə hesab olunur. Hər sayında maraqlı yazılarla oxucuların görüşünə gələn "Olimpiya dünyası" qəzeti bu dəfə "bir şəkilin tarixçəsi" mövzusunda yazını təqdim edir.*

*İnanırıq ki, nüfuzlu idman qurumları tərəfindən böyük dəyər verilən, bu günə qədər öz aktuallığını qoruyan "idman mövzusunda ilin ən yaxşı fotosu" nominasiyasının qalibi olan şəkillərlə bağlı yazı oxucularımızın marağına səbəb olacaq.*





## Cəngəllikdə necə yaşamağı Peleyə öyrətdilər

Braziliyalı futbol ulduzu Pele 1958-ci ildə İsveçdə keçirilən dünya çempionatının qalibi olduqdan sonra bir illik hərbi xidmətə yollanır. Pelenin hərbi xidməti dövründə xatirələrindən: "1958-ci ilin oktyabr ayında mənim 18 yaşım tamam oldu. Mən vətəndaşlıq borcumu yerinə yetirdim. Bu, mənim üçün bir möcuzə, qiymətli təcrübə idi. İçveçrəni finalda 5:2 hesabı ilə məğlub edib, ikiqat dünya çempionu olmaq mənə yüksək əhval-ruhiyyə bəxş etmişdi. Komanda yoldaşlarımdan biri mənə dedi ki, sən başqalarına




nümunə olmalı və hərbi xidmətə getməlisən. Bu söz məni tutmuşdu. Hərbi xidmət bir başqa aləmdir. Həmin müddət ərzində mən yemək bişirməyi, paltar yumağı, ütüləməyi və digər işləri öyrəndim. Hərbi xidmət mənə ən əsası nizam-intizamı öyrətdi. Sözsüz ki, bu da sonralar mənə futbolda kömək oldu. Hesab edirəm ki, boş yerə vaxt itirmədim"

## Meksika podiumuna ayaqyalın çıxan "qara güc"

1968-də Mexikoda keçirilən Olimpiya oyunlarında amerikalı atletlər Tommi Smit və Con Karlos "Black Power" (Qara güc) jesti ilə dünya idmanında yeni bir səhifə açdı. İdmançılar mükafatlandırma mərasimində fəxri kürsüyə ayaqyalın çıxıb, qara əlcəklə sıxılmış yumruqlarını yuxarı qaldırdılar. Bu məqamı az-çox Olimpiya Hərəkatı ilə maraqlanan əksər insanlar görmüşdü.

Onlar bu hərəkətləri ilə ABŞ-da irqçilərə etiraz edərək, ştatlarda olan yoxsullara qarşı həmrəylik nümayiş etdirmişdilər. Lakin bu jest birmənalı qarşılanmadı. Beynəlxalq Olimpiya Komitəsi (BOK) ABŞ Milli Olimpiya Komitəsinin o dövrki prezidenti Eyveri Brendecə məktub göndərərək, şərt irəli sürdü: "Ya həmin idmançılar diskvalifikasiya edilməli, ya da ki ABŞ yığması BOK-un bayrağı altında bütün yarışlardan kənar ediləcək". Problem birinci variantla öz həllini tapdı.

Smit və Karlos ABŞ-ın Milli Olimpiya Komitəsindən uzaqlaşdırıldı. Tommi və Con atletikada karyeralarını başa vurub, amerika futbolu ilə məşğul olmağa başladılar. 2016-cı ildə onlar təqaüd çağında ABŞ-ın Milli Olimpiya Komitəsi tərəfindən bəraət aldılar. Onların bu jestinə görə "Black Power" adlı xatirə abidəsi qoyuldu. Lakin hər şey üçün çox gec idi.

Qeyd edək ki, Mexiko-1968-də Tommi Smit 200 metr qaçışda, qızıl Con Karlos isə bürünc medala layiq görülmüşdü.

## Matias Kanda parovozu qabaqladı

1968-ci ilin iyun ayında "Assosiated Press" qəzeti Rodeziyada (Afrikanın cənubunda yerləşən ərazi) çəkilmiş bir foto dərc etmişdi. "Marafonçu Matias Kanda Mexiko-1968 Olimpiadasına hazırlaşır. O, qatarla yarışacaq".

Kanda Olimpiya Oyunlarında iştirak etmək arzusu ilə yaşayırdı. O, dəmir yolu kənarında qaçmaqla məşq edirdi. Parovozla birlikdə qaçan atlet hətta bəzi məqamlarda bu nəqliyyat vasitəsini qabaqlaya bilirdi. Onun bu arzusu məmur kabinetində məhv edildi. Böyük Britaniya birtərəfli qaydada müstəqilliyini elan etmiş Rodeziyaya qadağa qoydu. BMT Təhlükəsizlik Şurasının təsiri altında Rodeziya ölkəsinin pasportu beynəlxalq səviyyədə qəbul edilmədi. Buna görə də olimpiadaya ev sahibliyi edən Meksika rodeziyalı idmançıların ölkəyə girişinə qadağa qoydu.



Cənublu atletlər dörd ildən sonra bu dəfə Münhendə keçirilən olimpiadaya gəldilər. Lakin tarix yenə də təkrarlandı. Onlara yalnız Olimpiya kəndində yaşamağa və yarışlara tamaşa etməyə icazə verdilər. Rodeziyalılara yarışlarda iştirak etməyə icazə vermədilər.

1979-cu ildə Afrikanın cənubunda uzun sürən vətəndaş müharibəsindən sonra hakimiyyət dəyişdi. Yeni iqtidarın qərarı ilə Rodeziyanın adı Zimbabve-Rodeziya adı ilə əvəz olundu. Daha sonra ölkə Zimbabve adlandırıldı. Həmçinin bütün dövlət rəmzlərində dəyişiklik olundu.1980-ci ildə Böyük Britaniya və digər dövlətlər Zimbabvenin müstəqilliyini qəbul etdilər.

Lakin Matiasın olimpiadada çıxış etmək arzusu əbədi puç olur. 2009-cu il oktyabrın 30-da Matias Kanda 67 yaşında uzun sürən xəstəlikdən sonra vəfat edir. Onun həyat yoldaşı və altı uşağı qalır.

## Əli niyə Listona qışqırmışdı?

Dünya boksunun əfsanəsi Məhəmməd Əli və Sonni Liston arasındakı revanş qarşılaşması hələ bu günə qədər müzakirələrin əsas mövzusu olaraq qalır. Mütəxəssislər iddia edirlər ki, həmin qarşılaşmanın nokautla bitməsi əvvəlcədən danışılmışdı.

Dünyanın iki super ağırçəkili döyüşçüsü - Məhəmməd Əli və Sonni Liston ən yaxşı döyüşçülərdən hesab edilirdilər. Həmin ərəfədə Əli peşəkar karyerasında ən yaxşıları məğlub edərək, parlaq qələbələrini sıralayırdı. 1965-ci il mayın 25-də təşkil olunan qarşılaşmada razılaşmaya görə Əli məğlub olmalı idi.

Lakin Əli döyüşdə rəqibini döşəməyə sərdi. Ağır zərbə alan Listonun görüşü davam etdirməyə taqəti qalmadı. Belə ki, həmin vaxt yorulmuş, lakin qalib gəlmiş Əli rəqibinə baxıb, qışqırırdı: "Qalx! Qalx və döyüş!"

Sonninin gözləri tanınmaz hala düşmüşdü. Buna görə də S.Liston yeddinci raunda çıxmaqdan imtina etdi.

Beləliklə, duel qarşılıqlı razılaşmaya əsasən yekunlaşdı. Əlinin Listona qışqırması fotosu kiçik tirajlı nəşrlərdən birinə böyük nüfuz qazandırdı. Foto sonradan "Sports İllustrated" jurnalının versiyası olan "Əsrin ən böyük idman şəkilləri" siyahısına düşdü.

Bu hadisədən sonra keçmiş ağır çəkili dünya çempionları Cek Demps və Rokki Marsianonun fikirlərinə görə Liston heç vaxt noqdaunda belə yıxılmazdı. Onun Əlinin zərbəsindən deyil, başqa səbəbdən yıxıldığı iddia edilir. Görünür, həmin vaxt şou təşkilatçılarına da belə xəbərlər sərf edirdi.



## "Real"ın əfsanəsinə matç zamanı da siqaret çəkməyə icazə verirdilər

FİFA-nın keçirdiyi sorğuya əsasən XX əsrin ən yaxşı futbolçularından biri olan Alfredo Di Stefanonun qəribə bir vərdişi var idi. İkiqat "Qızıl top" mükafatçısı olan argentinalı həm də siqaret aludəçisi idi. Onu bu vərdişindən heç kim uzaqlaşdıra bilmirdi. Çıxış etdiyi klublarda hamı "sarışın ox" ləqəbli futbolçunun bu mənfi xüsusiyyəti ilə barışmışdı. O, bir dahi idi.



Vəziyyət elə həddə çatmışdı ki, Di Stefano ehtiyat oyunçular skamyasında oturaraq, siqaret çəkirdi.

Qeyd edək ki, Madrid "Real"ının əfsanəvi forvardı çempionatlarda beş dəfə kubok qazanmışdı. O, Argentina, Kolumbiya və İspaniya yığmalarının şərəfini qorumuşdu. Ömrünün sonlarına yaxın bir sıra klublarda, eləcə də "Real"da baş məşqçi olmuşdu.

*(ardı var)*

***Hazırladı:***
***Anar Əhmədov***

## Şahmatçılarımız Avropa çempionatında iştirak edəcəklər

Martın 27-dən aprelin 6-dək Sloveniyada şahmat üzrə Avropa çempionatı keçiriləcək. Qitə çempionatında Azərbaycanın 7 şahmatçısının iştirakı planlaşdırılır. Yarışda təmsilçilərimizdən Qədir Hüseynov, Rauf Məmmədov, Nicat Abbasov, Eltac Səfərli, Read Səmədov, Gövhər Beydullayeva, Nicat Məmmədov mübarizə aparacaqlar.

On bir turdan ibarət turnir İsveçrə sistemi üzrə keçiriləcək. Çempionatda iştirak etmək üçün indiyədək qeydiyyatdan keçmiş 298 şahmatçının 128-i qrosmeysterdir.

* * *

Serbiyanın Novi Sad şəhərində keçirilən şahmat üzrə beynəlxalq turnir başa çatıb. Yarışda Azərbaycanı təmsil edən Abdulla Qədimbəyli yekun nəticədə 5,5 xal toplayaraq 6-cı yeri tutub. Bu nəticə ilə şahmatçımız, həm də reytinqini 6 punkt artırıb. Doqquz turdan ibarət olan yarış İsveçrə sistemi üzrə keçirilib. Yarışda 24 şahmatçı iştirak edib ki, onlardan da 9-u qrosmeyster olub.



* * *

Beynəlxalq Şahmat Federasiyası (FIDE) nüfuzlu yarışlardan olan 44-cü Ümumdünya Şahmat Olimpiadasının Rusiyada keçirilməməsi ilə bağlı qərar qəbul edib. FIDE-nin saytında yerləşdirilən məlumatda sürətlə gərginləşən geosiyasi vəziyyətlə əlaqədar FIDE Şurasının belə bir qərar qəbul etməli olduğu bildirilib. Qurumun növbədənkənar iclasında planlaşdırılan bütün rəsmi yarışlara ev sahibliyinin Rusiyadan alınması qərara alınıb. Beləliklə, bu qərardan sonra əsas tədbirlərdən olan 44-cü Şahmat Olimpiadası, Xantı-Mansiyskdə keçiriləcək əlilliyi olan insanlar üçün birinci Şahmat Olimpiadası və FIDE-nin 93-cü konqresi Rusiyada təşkil edilməyəcək. FIDE bu tədbirlər üçün alternativ tarix və yerlərin axtarışı üzərində işlədiyini elan edib.



Qeyd edək ki, olimpiadanın iyulun 26-dan avqustun 8-dək Moskvada keçirilməsi nəzərdə tutulurdu.

Xatırladaq ki, Ümumdünya Şahmat Olimpiadası ilk dəfə 1927-ci ildə Londonda keçirilib. Yarış 1950-ci ildən başlayaraq hər iki ildən bir təşkil olunur. Azərbaycan 2016-cı ildə 42-ci Ümumdünya Şahmat Olimpiadasına ev sahibliyi edib. Sonuncu - 43-cü Olimpiada isə Batumidə keçirilib.

## Azərbaycan Qran-Prisinə marşal qeydiyyatı uğurla başa çatdı

"Bakı Şəhər Halqası" Əməliyyat Şirkətinin (BŞH) tərkibində fəaliyyət göstərən "Bakı Marşal Klubu" (BMK) iyunun 10-12-də keçiriləcək Formula 1 Azərbaycan Qran-Prisinə marşal qeydiyyat proqramını uğurla başa vurub.

BŞH-dən "Olimpiya dünyası" qəzetinə verilən məlumata görə, yanvarın 10-dan başlayan seçimlərdə 3 minə yaxın şəxs namizədliyini irəli sürərək, qeydiyyatdan keçib.

Fevralın əvvəlində başlayan müsahibə mərhələsi isə ayın 20-də yekunlaşıb. Artıq 440-a yaxın namizəd müsahibə mərhələsində iştirak edib. Müraciətlər arasında yerli namizədlərin sayı - 2300 nəfərə çatıb ki, onlardan 950-si öncəki yarışlarda uğurla iştirak etmiş, təcrübəli marşallardır. Xarici ölkələrdən olan marşalların müraciət sayı isə 360-a çatıb. Ümumilikdə, 2016-cı ildən etibarən qeydiyyatdan keçmiş təcrübəli marşalların sayı 3 min 400-ü keçib.

Mart ayından etibarən isə marşalların təlimlərinə start veriləcək. Təlimlər hər şənbə və bazar günləri Avropa Oyunları Parkında yerləşən Marşal tədris-təlim mərkəzində keçiriləcək. Bu prosesin iyunadək davam etməsi nəzərdə tutulur.

Formula 1 Azərbaycan Qran-Prisində marşal fəaliyyətini uğurla başa çatdıran hər bir şəxsə Azərbaycan Avtomobil Federasiyası və Beynəlxalq Avtomobil Federasiyası (FIA) tərəfindən beynəlxalq lisenziya təqdim olunacaq. Beynəlxalq lisenziya marşallara, yalnız Azərbaycanda deyil, həmçinin Formula 1 Qran-Prisinə ev sahibliyi edən digər ölkələrdə keçirilən yarışlara qatılmaq hüququ verəcək.

Formula 1 yarışlarında marşallar böyük əhəmiyyət daşıyır. F 1 aləmində marşallara "yarış rəsmiləri" də deyilir. Onların fəaliyyəti F-1 pilotlarının təhlükəsizliyinin təminatında və bütün marşal komandasının inzibati təşkilatçılığında həyati əhəmiyyət daşıyır.

Qeyd edək ki, "Bakı Marşal Klubu" BŞH tərəfindən 2016-cı il təsis olunub.

# Xocalı soyqırımının 30-cu ildönümünə həsr olunmuş idman yarışları keçirilib



"Təhsil" Respublika İdman Mərkəzinin (RİM) 4 saylı İxtisaslaşdırılmış Olimpiya Ehtiyatları Uşaq-Gənclər İdman-Şahmat Məktəbinin təşkilatçılığı ilə Xocalı soyqırımının 30-cu ildönümünə həsr olunmuş şahmat turniri keçirilib. Yarışdan əvvəl faciə qurbanlarının və şəhidlərin əziz xatirəsi 1 dəqiqəlik sükutla yad edilib. Sonra, Xocalı soyqırımı haqqında yarış iştirakçılarına ətraflı məlumat verilib. İsveçrə sistemi üzrə keçirilən və 7 turdan ibarət olan yarışda 8-10-12-14 yaş qrupları üzrə şahmatçılar mübarizə aparıb. Turnirdə mükafatçılar sırasında yer alan zəka sahibləri diplom və medallarla təltif olunublar.

* * *

Xətai rayonunda Xocalı soyqırımı qurbanlarının xatirəsinə həsr olunan basketbol 3x3 turniri keçirilib. Rayonun orta ümumtəhsil məktəblərinin şagirdləri arasında keçirilən turnir maraqlı idman mübarizəsi ilə yadda qalıb.



Yarışın yekununda 269 saylı tam orta məktəbin komandası birinci yeri tutub. İkinci yerə 260, üçüncü pilləyə isə 147 saylı Texniki-Humanitar Liseyin komandası sahib olub.

Qalib və mükafatçılar Xətai Rayon Gənclər və İdman İdarəsi tərəfindən təltif olunublar.

* * *

Xocalı soyqırımının 30-cu ildönümü ilə əlaqədar Nəsimi Rayon Gənclər və İdman İdarəsinin təşkilatçılığı ilə 46 saylı tam orta məktəbdə güllə atıcılığı üzrə "Mahir nişançı" adlı turnir keçirilib.



Turnirin açılış mərasimində Xocalı soyqırımı qurbanlarının xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Tədbirdə çıxış edən Nəsimi Rayon Gənclər və İdman İdarəsinin rəisi Şahmar Tağıyev, 46 saylı tam orta məktəbin direktoru Sevinc Budaqova və digərləri Xocalı soyqırımının dəhşətlərindən söz açıb, erməni millətçilərinin Xocalıda azərbaycanlılara qarşı törətdikləri soyqırımı aktının yalnız azərbaycanlılara qarşı deyil, ümumilikdə bəşəriyyət əleyhinə törədilmiş cinayət olduğunu bildiriblər. Çıxışlarda müasir dövrdə yeniyetmə və gənclərdə vətənpərvərlik hislərini gücləndirmək baxımından belə yarışların əhəmiyyəti qeyd olunub.

Daha sonra yarışa start verilib. Maraqlı idman mübarizəsi şəraitində keçən turnirin yekununda qaliblər mükafatlandırılıb.

* * *

Sumqayıt şəhər Gənclər və İdman Baş İdarəsinin təşkilatçılığı ilə Xocalı soyqırımının 30-cu ildönümünə həsr olunmuş şəhər yarışları keçirilib.

25 saylı tam orta məktənin idman zalında keçirilən voleybol üzrə turnirdə Sumqayıt Gənclərin İnkişaf Karyera Mərkəzinin komandası birinci yeri tutub. Gənclər Evinin komandası gümüş, Sumqayıt Könüllülər Cəmiyyətinin komandası isə bürünc medallara layiq görülüblər.





Paralimpiya İdman Kompleksində keçirilən güllə atıcılığı yarışında isə İqtisadi Zonaların İnkişafı Agentliyinin nəznində Sumqayıt Peşə Təhsil Mərkəzinin komandası birinci yerə layiq görülüb. Sənaye və Yüksək Texnologiyalar üzrə Sumqayıt Dövlət Peşə Təhsil Mərkəzi komandaları yarışı ilk üçlükdə yekunlaşdırıblar.

* * *

Xocalı soyqırımının 30-cu ildönümü ilə əlaqədar uşaq və yeniyetmələr arasında yunan-Roma güləşi növü üzrə Lənkəran rayon birinciliyi keçirilib. Lənkəran şəhər Gənclər və İdman idarəsinin, "Təhsil" RİM-nin, Lənkəran şəhər UGİŞM-nin təşkilatçılığı ilə keçirilən yarışda 60 güləşçi iştirak edib. Qaliblər diplom və medallarla təltif təqdim olunublar.



* * *

Astara Rayon Gənclər və İdman İdarəsinin, Astara Uşaq Gənclər İdman-Şahmat Məktəbinin birgə təşkilatçılığı ilə Xocalı soyqırımına həsr olunmuş 10-16 yaşlı rayon məktəblilər arasında şahmat üzrə rayon turniri keçirilib. Turnirdə 8 komanda dairəvi sistemi üzrə mübarizə aparıb. Yekun nəticələrə əsasən, 1 saylı tam orta məktəbin komandası (14 xal) bütün rəqiblərindən üstün olub. 2 saylı tam orta məktəbin komandası (10,5 xal), 3 saylı tam orta məktəb komandası (10 xal) isə mükafatçılar sırasında yer alıblar. Yarışda fərqlənən komandalara Astara Rayon Gənclər və İdman İdarəsinin diplomları təqdim edilib.



# FUTBOL



## Elxan Məmmədov FİFA-nın prezidenti ilə görüşüb

AFFA-nın icraçı vitse-prezidenti Elxan Məmmədov İsveçrənin Sürix şəhərində, FİFA-nın mənzil-qərargahında beynəlxalq futbol təşkilatının prezidenti Gianni İnfantino ilə görüşüb. Görüş zamanı E.Məmmədov AFFA-nın prezidenti Rövnəq Abdullayevin adından G.İnfantinoya ötən il təşkil olunan Avropa çempionatı zamanı Bakıya təşrif buyurması və Avro-2020-nin Bakı Olimpiya Stadionunda keçirilən İsveçrə-Türkiyə oyununu izləməsi ilə əlaqədar bir daha minnətdarlığını bildirib.

Azərbaycanda futbolun inkişafı, FİFA ilə AFFA arasında qarşılıqlı əməkdaşlığın daha da gücləndirilməsi ilə bağlı müzakirələrin aparıldığı görüşdə son dövrlər ölkəmizdə həyata keçirilmiş futbol infrastrukturu layihələri barədə ətraflı məlumat verilib.

E.Məmmədov Azərbaycan Premyer Liqasında yaxın gələcəkdə VAR sisteminin tətbiq olunacağını bildirib və bu istiqamətdə görülmüş işlər haqqında FİFA prezidentini məlumatlandırıb.

## “Qarabağ” üçün Konfrans Liqası həyəcanı başa çatdı

Futbol üzrə UEFA Konfrans Liqasında 1/16 final mərhələsinin cavab görüşləri keçirilib. Azərbaycanın turnirdəki yeganə təmsilçisi “Qarabağ” klubu pley-off mərhələsinin cavab oyununda Fransanın “Marsel” komandası ilə cavab qarşılaşmasına çıxıb. Tofiq Bəhramov adına Respublika Stadionunda keçirilən oyun qonaqların 3:0 hesablı qələbəsi ilə başa çatıb. Oyunda hesabı matçın 12-ci dəqiqəsində “Marsel”in futbolçusu Pap Quye açıb. Qarşılaşmanın 34-cü dəqiqəsində “Qarabağ” klubu fərqlənməyə imkan tapsa da, top İbrahim Vadjinin ələnə dəyib tora daxil olduğuna görə qol qeydə alınmayıb.




Görüşün ikinci hissəsində Ağdam təmsilçiləri bir neçə dəfə təhlükəli hücumlar etsələr də, fərqlənə bilməyiblər. Əvəzində isə qonaqlar matçın 77-ci dəqiqəsində Matteo Qenduzinin qolu ilə hesab arasındakı fərqi artırıblar. Görüşün sonunda - 90+2-ci dəqiqədə “Marsel”in heyətində De La Fuenten oyunda yekun hesabı müəyyənləşdirən qolu vurub. Beləliklə, oyun “Marsel” komandasının - 0:3 hesablı qələbəsi ilə başa çatıb.

İlk oyunda 1:3 hesabı ilə məğlub olan Qurban Qurbanovun komandası iki oyunun nəticəsinə görə 1:6 hesabı ilə məğlub olaraq UEFA Konfrans Liqasında mübarizəni dayandırıb.

## *Mingəçevirdə futbol hakimləri üçün seminar*

AFFA tərəfindən Mingəçevirdə Şimal-Qərb zonasından olan futbol hakimləri üçün seminar təşkil olunub. Hakimlər Komitəsinin üzvü Anar Salmanov Mingəçevir, Zaqatala, Qax, Tovuz, Gəncə, Qəbələ və Şəkidən olan hakimlərə nəzəri və praktiki məşğələlər keçib.

Seminarda hakimlikdə tətbiq edilən yeni oyun qaydaları izah olunub, gənc hakimlərin sualları cavablandırılıb.

## Konfrans Liqası: “Qarabağ”ın məğlub olduğu komandalar rəqib oldular

***İsveçrənin Nyon şəhərində UEFA Konfrans Liqasının səkkizdəbir final mərhələsinin püşkü atılıb. Qitənin üçüncü dərəcəli klub turnirində mübarizəni davam etdirən 16 komanda 8 cütlük təşkil edib.***

Qrup mərhələsini 1-ci yerdə başa vuran 8 klub və pley-offu adlayan komandalar kubok uğrunda mübarizəni davam etdirəcək. İlk oyunlar martın 10-da, cavab görüşləri ayın 17-də təşkil olunacaq. Qrup qalibləri cavab matçlarına ev sahibliyi edəcək. Azərbaycan təmsilçisi “Qarabağ”ı məğlub edən “Bazel” və “Marsel” bir-birinə rəqib olub.

Xatırladaq ki, bu turnirdə çıxış edən Azərbaycan klublarından “Sumqayıt”la “Keşlə” II təsnifat mərhələsində, “Neftçi” təsnifat pley-offunda, “Qarabağ” isə 1/8 finalın bir addımlığında mübarizəni dayandırıb.

UEFA Konfrans Liqasının final qarşılaşması Albaniyanın paytaxtı Tiranada keçiriləcək.




**Konfrans Liqası**

**1/8 final**

“Marsel” (Fransa) - “Bazel” (İsveçrə)
“Lester” (İngiltərə) - “Renn” (Fransa)
PAOK (Yunanıstan) - “Gent” (Belçika)
“Vitess” (Niderland) - “Roma” (İtaliya)
PSV (Niderland) - “Kopenhagen” (Danimarka)
“Slaviya” (Çexiya) - LASK (Avstriya)
“Budo-Qlimt” (Norveç) - “AZ Alkmar” (Niderland)
“Partizan” (Serbiya) - “Feyenoord” (Niderland)

## Azərbaycan cari ili 26-cı yerdə başa vurdu

Avropa Liqası və Konfrans Liqasında pley-off mərhələsi başa çatdıqdan sonra UEFA-nın yeni reytinq cədvəli açıqlanıb.

Azərbaycan cari mövsümü 17,000 xalla 26-cı pillədə başa vurub.

“Qarabağ”la yanaşı, “Şerif” də avrokuboklarla vidalaşdığından Moldovanın 11,250 xalla 33-cü pillədə qalacağı dəqiqləşib. Yəni, artıq Azərbaycanı üstələyə biləcək ölkə qalmayıb.

Ümumilikdə 18 ölkə qitəmiqyaslı turnirlərdə mübarizəni davam etdirir. Onlardan Yunanıstan (27,200), Çexiya (27,200) və Xorvatiya (27,150) irəliləyibsə, Danimarka (26,975) və Türkiyə (26,900) geriləyib.

## Qadınlardan ibarət komandamız Albaniya sınağına hazırlaşır

17 yaşadək qadın futbolçulardan ibarət Azərbaycan millisi martın 8-14-də Albaniyada Avropa çempionatının seçmə mərhələsinin 2-ci raundu çərçivəsində oyunlar keçirəcək. Yığmamızın qarşıdakı matçlar üçün heyəti açıqlanıb. Komandamız seçmə mərhələyə hazırlıq məqsədilə martın 1-dən 4-dək Bakıda təlim-məşq toplanışında olacaq.

***Millimizin oyunlarının təqvimi:***

**8 mart**
17:30. Albaniya - Azərbaycan
“Elbasan Arena”, Elbasan

**11 mart**
15:00. Azərbaycan - Şimali Makedoniya
“Eqnatia” stadionu, Rroqojine

**14 mart**
17:30. Azərbaycan- Şotlandiya
“Eqnatia” stadionu, Rroqojine

Avropa Liqasında 1/8 final mərhələsinin püşkü atılıb. Püşkə əsasən 16 komanda 8 cütlük təşkil edib. Bu mərhələdə qrup mərhələsinin 8 qalibi və pley-offu adlayan komandalar üz-üzə gələcək. İlk oyunlar martın 9-10-da, cavab görüşləri ayın 17-də təşkil olunacaq. Qrup qalibləri cavab matçlarına ev sahibliyi edəcək.

Türkiyənin “Qalatasaray” klubunun da rəqibinin adına aydınlıq gəlib. İstanbul klubu 1/8 finalda “Barselona”ya rəqib olub. “Sarıqırmızılar” ilk matçı səfərdə keçirəcək.

**Avropa Liqası**

**1/8 final**

“Reyncers” (Şotlandiya) - “Srvena Zvezda” (Serbiya)
“Braqa” (Portuqaliya) - “Monako” (Fransa)
“Porto” (Portuqaliya) - “Lion” (Fransa)

## *Avropa Liqası: “Qalatasaray” “Barselona” ilə üz-üzə*

“Atalanta” (İtaliya) - “Bayer” (Almaniya)
“Sevilya” (İspaniya) - “Vest Hem” (İngiltərə)
“Barselona” (İspaniya) - “Qalatasaray” (Türkiyə)
“Leypsiq” (Almaniya) - “Spartak” (Rusiya)
“Betis” (İspaniya) - “Ayntraxt” (Almaniya)



# Dünya idmanı



## “Alpin” bu dəfə çəhrayı rəngi seçdi

Yeni mövsümdən əvvəl Formula 1 komandaları bolidlərini ictimaiyyətə təqdim edirlər. Fransanı təmsil edən “Alpin” komandası da A522 adını daşıyacaq bolidini nümayiş etdirib.

Yeni boliddə diqqət çəkən özəlliklərdən biri onun çəhrayı rəngə boyanmasıdır. Amma “Alpin” yalnız Bəhreyn və Səudiyyə Ərəbistanı Qran-Prilərində bu rənglərdən istifadə edəcək. Daha sonra Fransa təmsilçisi ənənəvi göy rəngli bolidlə mübarizə aparacaq. Ötən mövsüm olduğu kimi, bu il də “Alpin” bolidlərinin sükanı arxasında Fernando Alonso ilə Esteban Okon əyləşəcək.




“Liverpool” klubu tarixində 9-cu dəfə İngiltərə Liqa Kubokunu qalibi olub. “Qırmızılar” finalda “Çelsi”ni məğlub

## “Liverpool” liqa kubokunu muzeyinə apardı

ediblər. Londondakı “Uembli” stadionunda təşkil olunmuş qarşılaşmanın əsas və əlavə vaxtı qolsuz başa çatıb. Penaltilər seriyasında isə “Liverpool” qələbə qazanıb - 11:10. Zərbəni dəqiq yerinə yetirə bilməyən yeganə oyunçu “Çelsi”nin qapıçısı Kepa Arrisabalaqa olub. Qalib komandanın qolkiperi Kuivin Kelleher isə əsas komandada 8-ci oyununu keçirməsinə baxmayaraq, matçın əsas qəhrəmanı olub.

Beləliklə, “Liverpool” Liqa Kubokunu qazanma sayında “Mançester Siti”ni üstələyərək, birinci yerə çıxıb.




## Avropa Super Liqası məsələsinə yenidən baxılacaq

Futbol üzrə Avropa Super Liqası layihəsi yenidən start götürür. İspaniyanın “Real Madrid”, “Barselona” və İtaliyanın “Yuventus” klubları yaxın günlərdə bununla bağlı qərarlarını açıqlayacaqlar. Turin təmsilçisinin prezidenti Andrea Anyellinin martın 3-də layihədəki dəyişikliklərlə bağlı məlumat verəcəyi bildirilib.

Qeyd edək ki, “Barselona”, “Real Madrid” və “Yuventus”un təsis etdiyi Superliqada İngiltərənin “Mançester Yunayted”, “Mançester Siti”, “Liverpul”, “Arsenal”, “Çelsi” və “Tottenhem”, İspaniyanın “Atletiko”, İtaliyanın “Milan” və “İnter” komandaları da iştirakını təsdiqləmişdi. Lakin sonradan 9 klub layihədən imtina edib.



## Çempionlar Liqasının finalı Parisə verildi

UEFA Çempionlar Liqasının finalı Rusiyanın Sankt-Peterburq şəhərindən alınıb. Bu barədə qərarı Avropa futbol qurumunun İcraiyyə Komitəsi qəbul edib. Buna səbəb kimi isə Rusiyanın Ukraynaya hərbi müdaxiləsi göstərilib.

İcraiyyə Komitəsinin qərarı ilə final oyunu Fransanın Paris şəhərinə verilib. Beləliklə, final oyunu mayın 28-də “Stad de Frans”da təşkil olunacaq.

Qeyd edək ki, Fransa sonuncu dəfə 2006-cı ildə Çempionlar Liqasına ev sahibliyi edib.

## FİFA-dan Rusiyaya qadağa

Beynəlxalq Futbol Federasiyası Assosiasiyası (FİFA) Rusiya Futbol İttifaqının komandalarının iştirak etdiyi beynəlxalq oyunlarda bu ölkənin bayrağı və dövlət himninin istifadəsini qadağan edib. Rusiyanın futbol komandası oyunlarda neytral statusda iştirak edəcək.

Federasiya həmçinin Rusiyada milli komandaların futbol oyunlarına qadağa qoyub və Rusiya millisi ev oyunlarını neytral meydanda və tamaşaçısız keçirəcək. FİFA Rusiya komandasının yarışlarda iştirakının dayandırılması da daxil olmaqla ələvə sanksiyaların müəyyən edilməsi üçün Beynəlxalq Olimpiya Komitəsi və UEFA ilə dialoqu davam etdirəcəyini bildirib.

## Rusiya Qran-Prisi ləğv edildi

Formula 1 Rusiya Qran-Prisi ləğv olunub. Bu barədə Formula 1 şirkətinin yaydığı rəsmi açıqlamada bildirilir.

Beynəlxalq Avtomobil Federasiyası ilə komandalar arasında aparılan müzakirələr nəticəsində hazırkı şəraitdə Rusiya Qran-Prisinin keçirilməsinin qeyri-mümkünlüyü qənaətinə gəlinib.

Qeyd edək ki, Rusiya Qran-Prisi sentyabrın 23-25-də Soçidə təşkil olunmalı idi.




**olimpnews.az - sizin saytınız**




Olimpiya dünyası

Baş redaktorun müavini: A.B.Şirəliyev

Qəzet Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Hüquqi Şəxslərin Dövlət Qeydiyyatı üzrə Bakı Bölgə Şöbəsində qeydiyyatdan keçib. Qeydiyyat N R-168

AZƏRBAYCAN BEYNƏLXALQ BANKI
VÖEN 9900001881
H/H AZ79IBAZ38090019449333849204
M/H AZ03NABZ01350100000000002944
KOD 805722
VÖEN 1500306421

Təqdim olunmuş materiallar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.
Redaksiya reklam materiallarının məzmununa görə məsuliyyət daşımır.

Qiyməti 40 qəpikdir.
Qəzet “Olimpiya dünyası”nın kompüter mərkəzində yığılır, səhifələnir və “CBS” mətbəəsində (Şərifzadə küçəsi, 3. tel: 447-75-05(04)) çərşənbə axşamı 4100 nüsxə ilə çap edilir.

DİQQƏT!
Qəzetimizin materiallarından istifadə edərkən “Olimpiya dünyası”na istinad etmək zəruridir.

*E-mail:* olimpiya_dunyasi@mail.ru
*Ünvan:* Bakı şəhəri, 2-ci sülh döngəsi, 2a.
*Tel.:* 564-90-49; 564-74-19